

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (23.509)

23 iyun 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verərək bildirib ki, yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir. Yeni inşa olunan piyada keçidi Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və həmin il açılışında ulu öndər Heydər Əliyevin şəxsən iştirak etdiyi bu park rayon sakinlərinin ən sevimli istirahət məkanıdır. Vurğulanıb ki, avtomobil yollarında piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir. Son dövrlərdə paytaxtda bu istiqamətdə görülən işlərə nəzər salsaq, bunun şahidi olarıq. Bundan başqa, bir neçə yerdə də bu cür qurğuların tikintisi davam etdirilir.

Dövlətimizin başçısı görülən işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

## Yaşıllıqlara qulluq sağlamlığımızı qoruyur

### *Naxçıvanda iməcilik keçirilib*





Muxtar respublikada həyata keçirilən ekoloji siyasət nəticəsində geniş yaşıllıq zolaqları, meyvə bağları salınmışdır. Bu da ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir. İməciliklər zamanı ağaclara aqrotexniki qulluq göstərilməsi, təmizlik və səliqə-sahman işlərinin görülməsi isə ekoloji tarazlıqla yanaşı, həm də insan sağlamlığının qorunması deməkdir. Görülən işlərin nəticəsidir ki, insanlar təbiətlə bir vəhdət şəklində yaşayır, zəngin flora və faunamız qorunur.

İyunun 20-də muxtar respublikada iməciliklər keçirilmiş, yaşıllıq zolaqları və meyvə bağlarına aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığındakı terras üsulu ilə salınmış meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər. Ötən illərdə meyvə bağında 10 minə yaxın müxtəlif meyvə, meşə və dekorativ ağacları, eləcə də üzüm kolları əkilmişdir. Lazımı aqrotexniki qulluq göstərilməsinin nəticəsidir ki, artıq ağaclar məhsul verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə bağlarına qulluğun davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 6 yeni avtobus verilmişdir





"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəqliyyat sektorunun inkişafı, xüsusilə sərnişindaşıma xidmətinin təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Dövlət Proqramının uğurlu icrasının nəticəsidir ki, bu gün muxtar respublikada şəhərdaxili və rayonlararası sərnişindaşıma xidməti tələbata uyğun həyata keçirilir. Sərnişindaşıma təsərrüfatının maddi-texniki bazası ilbəil gücləndirilir, müasir avtobuslar alınaraq xəttə buraxılır.

İyunun 22-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 6 yeni avtobus təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi Əli Hüseynəliyev çıxış edərək demişdir ki, muxtar respublikada müasir standartlara cavab verən yolların çəkilməsi, bütün xidmət imkanlarına malik avtovağzalların istifadəyə verilməsi, beynəlxalq marşrutlarda, eləcə də Naxçıvan şəhərdaxili nəqliyyatda iritutumlu, yüksək komfortlu avtobusların xəttə buraxılması nəqliyyat xidmətinin inkişafına səbəb olmuşdur. Sərnişindaşıma sahəsində operativliyin və əhalinin rahatlığının təmin edilməsi məqsədilə son vaxtlar Naxçıvan şəhərdaxili nəqliyyatında 9 və 10 nömrəli marşrutlar açılmış, həmçinin Naxçıvan-Əshabi-Kəhf, Heydərabad-Naxçıvan, Boyəhməd-Naxçıvan, Kəngərli-Naxçıvan marşrutları fəaliyyətə başlamışdır. Hazırda muxtar respublikada rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, sərhəd və ucqar dağ kəndlərinə işləyən avtomobillərin hərəkətinə diqqət artırılmışdır. Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin də maddi-texniki bazası möhkəmləndirilmişdir. Təqdim olunan yeni avtobuslar bu sahədə görülən işlərin davamıdır. Əli Hüseynəliyev muxtar respublikada nəqliyyatın inkişafına göstərilən qayğıya görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək

*Ardı 2-ci səhifədə*

demişdir: Naxçıvan Muxtar Respublikası uzun illərdir, blokada şəraitində yaşayır. Ona görə də əhalinin ictimai nəqliyyatdan rahat istifadəsi üçün lazımı tədbirlər görülür. Naxçıvan-Bakı istiqamətində hava nəqliyyatının fəaliyyət göstərməsi, Naxçıvan şəhərindən Bakı şəhərinə, qarşılıqlı müqavilələr əsasında Türkiyə və İrana avtobus marşrutlarının açılması, eləcə də muxtar respublika daxilində sərnişindaşıma xidmətinin təşkili imkan verir ki, əhali daxili və beynəlxalq sərnişindaşıma xidmətindən rahat istifadə etsin.

Ali Məclisin Sədri demişdir: Muxtar respublika daxilində bütün yaşayış məntəqələrini əhatə etməklə 140-a yaxın marşrut xəttində dövlət və şəxsi nəqliyyat vasitəsilə, eləcə də taksilərlə əhaliyə sərnişindaşıma xidməti göstərilir. Bu da xidmətin düzgün rəqabət şəraitində təşkilinə hesablanıb. Təqdim olunan yeni avtobuslar Naxçıvan şəhərdaxili marşrutunda fəaliyyət göstərəcəkdir. Naxçıvan şəhəri muxtar respublikanın paytaxtıdır. Ona görə də hər gün rayon mərkəzi və kəndlərdən Naxçıvan şəhərinə marşrutlar işləyir. Əhali Naxçıvan şəhərinə daha çox gəlir. Bütün bunlar da şəhərdaxili sərnişindaşıma xidmətinin müasir tələblər səviyyəsində qurulmasını zəruri edir. Tələbata uyğun alınan müasir



avtobuslar sərnişinlərə yüksək səviyyəli xidmət göstərməyə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Hər həftəsonu Naxçıvan şəhərində kənd təsərrüfatı yarmarkaları keçirilir, təsərrüfat sahibləri öz məhsullarını satışa çıxarırlar. Bu səbəbdən də Dövlət Nəqliyyat Xidməti kəndlərdən Naxçıvan şəhərinə, eləcə də yarmarkaların keçirildiyi ərazilərə marşrut xidmətinin təşkilinə xüsusi diqqət yetirməlidir. Eyni zamanda avtobuslardan səmərəli istifadə olunmalı, onlara vaxtında texniki qulluq göstərilməlidir.

"Yeni avtobuslar sərnişindaşıma xidmətini yaxşılaşdırmaqla yanaşı, həm də 12 nəfər işlə təmin olunacaqdır", – deyən Ali Məclisin Sədri yeni avtobuslardan istifadə edəcək sürücülərin seçiminə diqqət yetirilməsi və xidmətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

Baxış zamanı bildirilmişdir ki, Naxçıvan şəhərində sərnişindaşıma xidməti 10 marşrut xəttində 66 avtobusla həyata keçirilir. Yeni alınan "KİNG-LONG" markalı 6 avtobusun hər biri 22-si oturacaq, 20-si ayaqüstü olmaqla, 42 sərnişin yerlikdir. Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan avtobuslar yumşaq oturacaqlar, siyirməli şüşələr, yanğınsöndürən balonlar, dərman çantası, ön, yan və arxa tərəfində elektron məlumat lövhələri, havalandırma sistemi ilə təchiz edilmişdir. Avtobusların mühərrik bölməsində avtomatik işə salınan yanğınsöndürən, eləcə də hər hansı texniki problem zamanı qapıların mexaniki üsulla açılmasına imkan verən xüsusi qurğu quraşdırılmışdır. Dizel yanacağı ilə işləyən avtobusların mühərriki "Avro 5" standartına uyğundur.

Yeni avtobusların şəhərin mərkəzi küçə və prospektlərində fəaliyyət göstərən 3, 4 və 5 nömrəli marşrutlarda işləməsi nəzərdə tutulmuşdur. Avtobuslarla birlikdə dəyəri 66 min manat olan ehtiyat hissələri də alınıb gətirilmişdir ki, bu da əvvəlki illərdə gətirilmiş və təmirə ehtiyacı olan avtobusların daim saz vəziyyətdə saxlanılmasını təmin edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---



23 iyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

# Dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 5 may tarixli Sərəncamına əsasən hər il iyunun 23-ü ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi qeyd olunur.*

Ölkəmizdə dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dövlət idarətmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanılmış, dövlət qulluğu sahəsində uğurlu islahatlar həyata keçirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ulu öndərimizin təşəbbüsü və müəllifliyi ilə hazırlanan Konstitusiyamız müasir dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasının hüquqi bazası rolunu oynamış, 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Ümummilli liderin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzası ilə mühüm Dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmi yaradılmış, dövlət qulluğu sahəsində münasibətlərin tənzimlənməsi daim nəzərdə saxlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi bunun bariz ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılmış, müasir dövlət idarəçilik sistemi formalaşdırılmışdır. Həyata keçirilən islahatları iki qrupa ayırmaq olar. Birinci istiqamət dövlət qulluğu sahəsində institusional islahatların həyata keçirilməsi ilə bağlı olmuşdur. Bu məqsədlə qanunvericiliklə müəyyən edilmiş dövlət siyasətini və tənzimlənməni həyata keçirən dövlət orqanları yaradılmış və onların normal fəaliyyət göstərməsi təmin olunmuşdur. Dövlət idarəçiliyində innovasiyalar tətbiq edilmiş, "Elektron hökumət" portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil edilmişdir. Bütün bunlar, eyni zamanda Naxçıvan Muxtar Respublikasında vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinə və insan amilinə verilən dəyərin göstəricisidir. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, dövlət qulluqçularının fəaliyyəti yaxşılaşdırılmış, onlara lazımi iş şəraiti yaradılmışdır.

Dövlət qulluğu sahəsində islahatların ikinci istiqaməti isə müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsidir. Kadr siyasətinin əsas məqsədi dövlətə və cəmiyyətə xidmət üçün lazımi keyfiyyətlərə malik dövlət qulluqçularının formalaşdırılması, habelə dövlət qulluğu sferasının yüksək peşəkarlığa malik, vicdanlı, məsuliyyətli və vətənə sədaqətli işçilərin cəlb olunmaqla komplektləşdirilməsidir. Qeyd olunan məqsədlərə nail olmaq üçün muxtar respublikada yeni məktəb binaları, tədris korpusları tikilmiş, təhsil müəssisələrində tədris müasir standartlara uyğunlaşdırılmış, maddi-texniki baza möhkəmləndirilmiş, mütəxəssis və kadrların hazırlığı üçün hərtərəfli şərait yaradılmışdır. Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Ali Məclis Sədrinin 2015-ci il 27 iyul və 2019-cu il 3 aprel tarixli sərəncamları dövlət orqanları və təhsil müəssisələri arasında əlaqələrin genişlənməsinə, insan kapitalının inkişafına, dövlət qurumlarının ixtisaslı kadrlarla təmin olunmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması həyata keçirilən islahatların ən vacib tərkib hissəsidir. Komissiyanın yaradılmasında əsas məqsəd muxtar respublikada kadr siyasətinin həyata keçirilməsi, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil olunması, dövlət qulluğu üçün kadrların müsabiqə yolu ilə seçilməsi, yerləşdirilməsi və digər məsələlər barəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Fəaliyyətə başladıqdan qısa müddət sonra komissiya üçün yeni inzibati binanın tikilməsi, test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin yaradılması komissiyanın fəaliyyətində innovasiya və startapların tətbiqini mümkün etmiş, test imtahanı proqramı, Dövlət Qulluqçuları Reyestrinin aparılması proqramı, test və müsahibələrdə iştirak üçün onlayn qeydiyyat proqramı istifadəyə verilmişdir. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın portalının və yeni proqram təminatının istifadəyə verilməsi vətəndaşların dövlət qulluğuna qəbul üçün müraciət etmək imkanlarının asanlaşdırılmasına, vaxt və maliyyə itkisinin qarşısının alınmasına, komissiyaya gəlmədən və əlavə sənəd təqdim etmədən "şəxsi kabinet" vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibələrdə iştirakına şərait yaratmışdır. Bundan başqa, *"DQMK.NMR.AZ"* mobil tətbiqi istifadəyə verilmişdir ki, vətəndaşlar mobil tətbiqi yükləməklə istənilən yerdən telefon vasitəsilə komissiyanın fəaliyyətini izləyə, xəbərlər, elanlar, müsabiqələr və imtahan nəticələri barədə ətraflı məlumat əldə edə bilirlər.

Bu gün vətəndaşların muxtar respublikada dövlət qulluğuna müsabiqə və şəffaflıq əsasında qəbulu üçün lazımi şərait mövcuddur. Komissiyanın yaradılması məşğulluq strategiyasının həyata keçirilməsinə öz müsbət töhfəsini vermişdir. Belə ki, komissiya tərəfindən indiyədək keçirilmiş 18 müsabiqədə 6086 namizəd iştirak etmiş, onlardan 1207-si müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur. Komissiyanın keçirdiyi müsabiqələr nəticəsində məsləhətçi vəzifəsinə təyin olunmuş şəxslərdən bir qismi öz vəzifələrini uğurla yerinə yetirərək dövlət qulluğunda irəli çəkilmişdir.

Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar nazirlikləri, muxtar respublika Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Vergi, Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərində vakant vəzifələrin tutulması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün keçirilmiş 43 müsabiqədə iştirak edən 2075 namizəddən 662-si test imtahanlarında müvafiq keçid balını toplamışdır. Bundan başqa, dövlət qulluğuna qəbulun şəffaflıq əsasında keçirilməsi prinsipi digər sahələrə də tətbiq edilmiş, 2018-ci ildən dövlət ümumi təhsil müəssisələrinə, 2019-cu ildən isə dövlət musiqi təhsili müəssisələrinə, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə işə qəbul mərkəzləşdirilmiş qaydada, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın proqram təminatı vasitəsilə həyata keçirilmiş, test imtahanlarında 2035 nəfər iştirak etmişdir.

Dövlət orqanlarına metodik köməklik də göstərilir və dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların dövlət qulluqçuları tərəfindən öyrənilməsi ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Hər il məhkəmə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün etik davranış qaydalarına riayət olunması, kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları və digər mövzularda keçirilən seminarlarda yüzlərlə inzibati vəzifə tutan dövlət qulluqçusu iştirak edir. "Səyyar dövlət qulluğu xidməti könüllülüyü" layihəsi çərçivəsində rayonlarda yaşayan, internet və informasiya kommunikasiya texnologiyalarından istifadə edə bilməyən və elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə səyyar xidmət göstərilir. Gənc dövlət qulluqçuların intellektual fəaliyyətə cəlb etmək, onlar arasında bilik və elmin nüfuzunu artırmaq məqsədilə intellektual oyunlar keçirilir.

Dövlət Qulluqçuları Reyestrinin məlumatlarına əsasən muxtar respublikada, ümumilikdə, 2610 dövlət qulluqçusu fəaliyyət göstərir ki, onların 27 faizini gənclər, 24 faizini isə qadınlar təşkil edir.

Yuxarıda qeyd olunanlar, habelə keçirilən müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və vətəndaşların, xüsusilə gənclərin dövlət qulluğuna, o cümlədən dövlət qulluğunun xüsusi növünə aid orqanlara marağı artır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsi də öz intibah dövrünü yaşayır. Bütün uğurların təməlində isə ümummilli lider Heydər Əliyev yoluna sadiqlik və bu yolun uğurla davam etdirilməsi dayanır.

Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmış, dövlət qulluqçuları qayğı ilə əhatə olunmuş, öz fəaliyyəti ilə fərqlənənlər təltif edilmişlər. Bu gün dövlət qulluqçularının sosial müdafiəsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır, muxtar respublikanın şəhər və rayonlarında Gənclər şəhərcikləri və yeni yaşayış binaları inşa edilir. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən dövlət qulluqçularına göstərilən qayğının və insan amilinə verilən dəyərin bariz nümunəsidir.

*Göstərilən qayğının müqabilində hər bir dövlət qulluqçusu bundan sonra da səylə çalışmalı, muxtar respublikamızın inkişafı və tərəqqisinə öz töhfəsini verməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"...Müstəqil Azərbaycan Respublikasında dövlət qulluğunda çalışmaq hər bir insan üçün ən dərəcə şərəfli işdir. Bu o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır".***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Hüseyn Məmməd oğlu Həşimli



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Həşimli Hüseyn Məmməd oğlu 2020-ci il iyunun 20-də ömrünün 55-ci ilində vəfat etmişdir.

Hüseyn Həşimli 1965-ci il avqustun 25-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Teyvaz kəndində anadan olmuş, orta məktəbi həmin kənddə bitirmişdir. 1982-1986-cı illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə ali təhsil almışdır.

O, 1986-2019-cu illərdə Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim, dekan müavini, tədris işləri üzrə prorektor vəzifələrində işləmiş, 2019-cu ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan Hüseyn Həşimli geniş ədəbi və bədii yaradıcılıqla da məşğul olmuşdur.

Hüseyn Həşimli 1998-ci ildə filologiya üzrə fəlsəfə doktoru, 2011-ci ildə isə filologiya üzrə elmlər doktoru elmi dərəcəsi, 2017-ci ildə professor elmi adı almışdır. Görkəmli alim zəngin elmi yaradıcılıqla pedaqoji fəaliyyəti uğurla əlaqələndirmiş, uzun illər Naxçıvan Dövlət Universitetində gənc kadrların hazırlanması işində böyük əmək sərf etmişdir.

30 kitabın, o cümlədən 350 elmi məqalənin müəllifi olan Hüseyn Həşimlinin çoxsaylı elmi əsərləri həm də beynəlxalq jurnallarda nəşr olunmuşdur. Onun elmin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş, 2007-ci ildə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Hüseyn Həşimli elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, həm də ictimai-siyasi xadim kimi də xidmətlər göstərmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin III, IV, V, VI çağırış deputatı, Ali Məclisin Sosial siyasət, elm, təhsil, idman və mədəniyyət məsələləri komitəsinin sədri olmuşdur.

Ömrünü elmin inkişafına həsr edən gözəl insan, fədakar alim Hüseyn Həşimlinin xatirəsi unudulmayacaqdır.

Allah rəhmət eləsin!

**Naxçıvan Muxtar Respublikasının Ali Məclisi**

**Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti**

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi**

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanı keçirilib.***

## Ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib

Müsabiqəyə yerli icra və probasiya qurumlarında 8, Ordubad Rayon Dövlət Notariat Ofisində 1, Sədərək Rayon Dövlət Notariat Ofisində isə 1 yer olmaqla, ümumilikdə, 10 vəzifə çıxarılıb.

Müsabiqədə 10 vakant vəzifənin tutulması üçün sənəd təqdim etmiş 18 namizəddən 10-u test imtahanında iştirak edib, namizədlərdən 5-i müvafiq keçid balını toplayıb. İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. Müraciətlər müsabiqə elan edildiyi gündən etibarən 30 gün ərzində Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalı vasitəsilə elektron formada qəbul edilib.

Namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 3 saat vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb.

İmtahan bitdikdən dərhal sonra namizədlərə nəticəyə dair arayış təqdim olunub. Test imtahanında Ədliyyə Nazirliyinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

İmtahan karantin rejiminin tələblərinə uyğun şəkildə keçirilib.

Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

# Ədəbi və əbədi yolun qadir yolçusu

***Bu fani dünyada ömür payı deyilən bir tale qismətini hərə bir biçimdə, bir qiyafədə yaşayır. Kimisi ruhsuz bədən kimi dolaşır, sürünür, bu həyata yük olur... Kimisi də yaranışdan ömrünü-gününü əbədiyyət körüyündə qətrə-qətrə, zərrə-zərrə, yonqar-yonqar əridərək qəlblərdə köç salıb ürəklərdə, könüllərdə taxt qurur... Və günlərin birində varlığı ilə insanlığa zinət olanların bir dünya işıq ruhları bu dünyanın adiliyinə, faniliyinə sığmayıb həyatı əbədiyyət fövqündə seyr etmək məramı ilə Səməndər quşu kimi göylərə pərvazlanır... Yoxluqları hər anarkən göynədir qəlbimizi, təkrar-təkrar sarsıdır mənliyimizi, sıtmalayır ruhumuzu, varlığımızı. Əməlləri, amalları oyalayır ruhumuzu qəlbə təsəlli kimi... İlin, günün bu vədəsində, yaxşıları tütyə deyə aradığımız bir zamanda elimizin bağrından, elmimizin köksündən bir şah budağın da qopub ayrılması yandırdı, sızlatdı bizi. İtkisi, yoxluğu özü qədər ağır olan, böyük olan bir yaxşı da bu gedişlə hey qovurdu ruhumuzu, içimizi...***

X əsr Azərbaycan ədəbiyyatının tanınmış tədqiqatçısı, mətnşünas alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Həşimli... Yarım əsri vur-tut beş il adlayan ömründə bir əsrə bərabər zəngin, dəyərli, faydalı bir ömür payı yaşadı. Fitrətən elmi-ilahi idi. Ali təhsil aldığı illərdə bəzən auditoriyaya müəllim kimi girib universitetdə ədəbiyyatı tədris etmək səlahiyyəti qazanmaq nadir istedad və intellekt sahiblərinə məxsus olan bir səadət idi. Hələ tələbə ikən elmi məqalələr dərc etdirməsi, "Ən yaxşı tələbə elmi işinə görə" medalı ilə təltifi gələcəkdə sanballı elm adamı olacağının soraqçısı idi.

Elmdə hədsiz tələbkar idi. Filologiya üzrə fəlsəfə doktorluğu alimlik dərəcəsi aldıqdan düz 13 il sonra – hamının intizarla gözlədiyi, buna elmlər doktoru adı alan bəzi həmkarlarından çox-çox əvvəl və tam halallıqla layiq olduğu halda, 13 il sonra doktorluq dissertasiyası müdafiə etməsi elmə həssas və tələbkar münasibətindən irəli gəlirdi. Elmlər doktoru alimlik dərəcəsi adı almaq üçün dissertasiya müdafiə etməzdən düz 4 il əvvəl "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" kimi fəxri ada layiq görülməsi də bunu bir daha təsdiq edir.

Otuza yaxın elmi kitabın və monoqrafiyanın, üç yüz qırxdan çox elmi, yüzlərlə qəzet məqaləsinin müəllifi olan Hüseyn müəllimin elmi fəaliyyəti çoxistiqamətli, çoxşaxəli idi. Ədəbiyyat nəzəriyyəsi istiqamətində sentimentalizm ədəbi cərəyanı, XX əsr Azərbaycan ədəbiyyatında yaranan sonet, terset kimi yeni lirik janrlar, mənsur şeirimizin yaranma tarixi və inkişaf istiqamətləri, Avropa lirik janrlarının Azərbaycan ədəbiyyatında təcəlla tapması, Hüseyn Cavidin lirikasında Avropa poetik ənənələrindən qaynaqlanma, tərəqqipərvər şairimiz Səid Səlmasi, Azərbaycan dilində yazılan ilk qəzəlin müəllifi, sufi şairimiz İzzəddin Həsənoğlunun ədəbi irsi… Bunlar bir ömrə sığmayacaq min bir ömür bəxşişidir elmimizə! Onun bir özünəməxsusluğu da elmdə kimsəsizlər kimsəsi olması, məhz unudulmuş ədəbi simalara yenidən əbədilik ömrü verməsi, milli elmi-ədəbi irsimizə qazandırması idi.

İyirminci əsrin əvvəllərində yazıb-yaratmış ədiblərdən Azərbaycan romantizminin tanınmış nümayəndələrindən biri Məhəmməd Hadinin, ədəbiyyatşünas, tənqidçi Abdulla Surun və digərlərinin mənsur şeirləri, nasir, pedaqoq Abdulla Divanbəyoğlu, Əli Səbri, Bağır Cabbarzadənin nəsr əsərləri, şair, nasir və naşir Əlipaşa Səbur Hüseynzadənin şeir kitabları, satirik şairimiz Əli Məhzunun "Ədəbiyyata dair" adlı elmi əsəri, şair, jurnalist Əliabbas Müznibin, pedaqoq Ələkbər Qərib Naxçıvanlının hekayə və bəzi məqalələri, maarifpərvər ziyalı, yazıçı-publisist, pedaqoq Eynəli bəy Sultanovun bəzi məqalələri, şair, publisist Nemət Bəsirin, şair, ədəbiyyatşünas, tənqidçi Əli Nazimin bəzi şeirləri, Səid Səlmasinin bir sıra bədii, publisistik əsərləri, həmçinin müasirlərinin Səlmasiyə həsr etdikləri bir çox məqalə və şeirləri, Abbas Səhhətin M.Y.Lermontovdan "Mtsıri" tərcüməsinin 1912-ci ildə nəşr olunmuş orijinal mətni də ilk dəfə məhz görkəmli ədəbiyyatşünas alimimiz tərəfindən çapa hazırlanaraq müasir oxuculara çatdırılmışdır. Azərbaycan elmi-ictimai mühiti, ədəbiyyatşünaslıq elmimiz bu ilk elmi tapıntılara, yeni faktlara görə Hüseyn Həşimli imzasına borcludur. Yalnız bir nəsil ədəbiyyatşünasın qazanması mümkün ola biləcək qədər böyük bir elmi-mənəvi xəzinənin bir alimin simasında cəmləşməsi Hüseyn Həşimli məktəbinin dərinliyindən, zənginliyindən soraq verir. Onun elmi-tədqiqat əhatəsi o qədər zəngin və genişdir ki, bundan sonra yazılacaq əksər monoqrafiyalarda, dissertasiyalarda, elmi məqalələrdə Hüseyn Həşimli imzası isnad mənbəyi kimi qırmızı xətlə keçəcək. Yarım əsrdən azca çox olan bir ömürdə elmin fanatı olmaqla qazanılan bu uğurlar gələcək ədəbiyyatşünaslığımızın, bəlkə də, birəsrlik ilkin elmi istiqamətləri, gələcək elmi tədqiqatların ilk cığırlarıdır.

Hüseyn müəllim dərin mətnşünas olmaqla yanaşı, həm də tanınmış mətbuatşünas idi. Onun görkəmli pedaqoq, yazıçı və jurnalist Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi"ndə ədəbi-elmi fikir", tanınmış şair, publisist, tərcüməçi Məmmədəli Sidqinin "Məktəb" jurnalında çıxmış hekayələri, "Şeypur" jurnalı ilə bağlı fəaliyyəti haqqında tədqiqatlarının tarixi elmi dəyəri ondadır ki, görkəmli maarifpərvər ziyalıları mətbu fəaliyyətləri, dövrünün mətbuatı ilə paralel tədqiq edib, zəngin maraqlı elmi faktlar ortaya çıxarmışdır. "Yeni füyuzat" (1910-1911), sonra isə "Şeypur" (1918-1919) jurnallarının bütün saylarını toplayaraq kitab şəklində çap etdirməsi gərgin elmi axtarışların, mətnşünaslıq səriştəsinin bəhrəsidir. Bu nəşrlər ictimai fikrin inkişafında müstəsna rolu olan mətbuata böyük elmi dəyər, publisistikaya sevgi və maraq olmaqla, gələcək mətbuat tarixi tədqiqatları üçün bir təməldir, fundamentdir.

Hüseyn müəllim elmdə səthiliyin, saxtakarlığın, ifrat maddəhliğın, elə qərəzliliyin də düşməni idi. Qeyri-adi yaddaşa, ədəbi faktlara məntiqi təfəkkürlə yanaşma qabiliyyətinə malik Hüseyn müəllimin ciddi elmi monoqrafiyalarında belə, tədqiq etdiyi tarixi ədəbi şəxsiyyətlərin, ədəbi qəhrəmanların binəsib, nisgilli talelərinə ürək yanğısı duyulur. Ədəbiyyatşünaslarımızın heç də hamısına məxsus olmayan yüksək poetik zövqə, söz duyumuna malik Hüseyn müəllimin elmi əsərlərini, zəngər dəqiqliyi ilə seçdiyi bədii nümunələri bir yerə toplayıb nəşr etsək, gözəl bir ədəbi almanax, incə şeiriyyət dəməti yaranar.

Son görüşlərimizdən birində qədim və zəngin tarixə malik diyarımızın iyirminci əsrdə yetirdiyi görkəmli ziyalılardan olan yazıcı, tərcüməçi, publisist və ictimai xadim Əli Səbri Qasımovun şəxsiyyəti, qələmə aldığı əsərləri, tərcümələri haqqında elmi tapıntılarından o qədər ürəkdolusu, sevinclə bəhs edirdi ki… Hələ mətbəə iyi getməmiş "Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı" monoqrafiyasının sevincini doyunca yaşaya bilmədi…

Bütün bu elmi nailiyyətlərin Naxçıvanda yaşaya-yaşaya mərkəzi fond və arxivlərdə, respublika kitabxanalarında günlərlə gərgin elmi tədqiqatlar aparmaq, hansı çətinliklər hesabına qazanıldığını azacıq elmi-tədqiqat işi ilə məşğul olanlar belə, yaxşı anlayır.

O həm də gözəl pedaqoq idi. Mübaliğəsiz olaraq söyləyə bilərəm ki, akademik İsa Həbibbəyli, professor Yavuz Axundovun yetirməsi kimi Naxçıvan Dövlət Universitetində filologiyanın tədrisində qazanılan uğurların, gənclərin bu sahəyə böyük maraq göstərməsinin səbəbkarlarından biri idi. O, ali təhsilini başa vuran kimi təyinatla əmək fəaliyyətinə başladığı həmin ali məktəbdə sıravi müəllimlikdən professorluğadək yol keçmiş, tədris işləri üzrə prorektor işlədiyi vaxtlarda muxtar respublikamızda ali təhsil strukturunun formalaşması və inkişafında özünəməxsus rol oynamışdır. Ən ipə-sapa yatmayan, nadinc auditoriyanı belə, öz aram və dərin nitqi, sinədəftər faktları ilə beşcə dəqiqədə ram edərdi. Fövqəladə yaddaşı, ədəbiyyata sonsuz sevgisi, sözə həssaslığı sevdirmişdi onu tələbələrinə. Auditoriyaya girərkən tələbələrin simalarındakı, ovqatlarındakı durulmağı dəfələrlə sezib öyrənmişəm ki, əvvəlki dərs Hüseyn müəllimin dərsi imiş və onun ədəbiyyat sevgisinin, yanğısının ecazkar ovsunundan tələbələr hələ ayılmayıblar.

Dissertasiya müzakirələri və müdafiələri zamanı biz gənclərin fürsəti fövtə verməyib "hünər meydanında cövlan etməyinə" səbir və təmkinlə tamaşa edər, səmimiyyətlə qımışar, sondakı aram, lakin qətiyyətli çıxışını isə nəfəs almayıb göz qırpmadan dinlədər, bununla da öz möhürünü vurmuş olardı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dörd çağırış deputatı olan Hüseyn müəllim hərtərəfli şəxsiyyət idi, ictimaiyyət-tez-tez təmasda olmağı, ziyalılıq və vətəndaşlıq mövqeyini bildirməyi mənəvi borc hesab edirdi. Kütləvi informasiya vasitələrinin də ruhi qida, ziya mənbəyi idi. Efirlərimizi, mavi ekranlarımızı zənginləşdirən ziya nəfəsi, sanballı, mətbuatımızın çəki dəyəri idi. Bundan sonra jurnalistlərimizin hər hansı elmi polemika zamanı "Ən doğrusunu Hüseyn müəllim bilər" minvalı, aktual müsahibə, məqalə ümidi ilə istiqaməti hamılıqla bir hədəfə – Hüseyn Həşimli ziyasına yönələndə baxışlarımız səmalara qovuşan işıqlı idrakın pak ruhunun yerində qaralan efir boşluqlarında, sonsuzluq fəzasında ilişərək donacaq. Elimiz, elmimiz, mənəviyyatımız üçün yeri doldurulmayacaq bir acı boşluqla üz-üzə dayanacağıq.

Hüseyn müəllim yüksək insani keyfiyyətlərə malik, gözü-könlü tox adam idi, təmənnasız, təkəbbürsüz idi... Gecənin bir saatında belə, yuxudan oyatdıqda istənilən mövzuda saatlarla mühazirə deyə biləcək canlı ensiklopediya idi. Kimliyindən asılı olmayaraq, müraciət edəni, maraq göstərəni qalın şüşəli eynəyinin altından boylanan yorğun gözləri ilə təbəssümlə süzüb saatlarla həvəslə elmi istiqamət verər, sualları cavablandırmaqdan yorulmazdı. Elə bunlara görə də mülayim, xoşgüləş, səmimi və xeyirxah bir insan kimi də qalacaq yaddaşlarımızda. Sadə ocağından, onun bu elm kəhkəşanında qədərincə parlamağa ruhlandıran sadə ailəsindən dəstək alaraq ömrünü, taleyini elmə həsr etmişdi. Ondan qalan tükənməz mənəvi irs – bir kitabxanalıq əsərləri, zəngin kitabxanası, arxividir. Bir də elmimizdə bu idealları yaşadacaq yetirmələri, bu soyadı şərəflə daşıyacaq layiqli övladları. Əvəzində elmdə elə bir Hüseyn Həşimli etalonu qoydu ki, illər, onilliklər ötsə belə, nəsilbənəsil ədəbiyyatşünaslar, alimlər yetişsə belə, o böyük zirvə yenilməz, fətholunmaz qalacaq. Sözümün bu acizlik məqamında AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəylinin Hüseyn Həşimlinin qəfil ölümündən sarsılaraq dediyi bu sözlər dadıma çatır: *"Hüseyn Həşimli ölkə miqyasında qəbul edilən mükəmməl ədəbiyyatşünas alim, bütöv və parlaq şəxsiyyət idi. Ali məktəbə qəbul olduğu ilk gündən ta bu günə qədərki işıqlı və zəhmətkeş həyatı ilə o, ölkəmizin dövlətçilik ideallarına və böyük ədəbiyyatşünaslıq andına sədaqətlə xidmət etmişdir. Hüseyn Həşimlinin ədəbiyyat nəzəriyyəsinə və ədəbiyyat tarixinə dair çap etdirdiyi əsərlər fundamental elmi tədqiqatlardır. O, ədəbiyyatın, elmin və ictimai fikrin mövcud vəziyyətini dərindən dərk edən, sabahını da aydın şəkildə görə bilən və qiymətləndirən mükəmməl bir Azərbaycan ziyalısı idi. Onun timsalında mükəmməl alim olmaqla, bənzərsiz müəllim olmaq birbirini tamamlayırdı. Biz Hüseyn Həşimlinin simasında görkəmli bir elm adamını, böyük bir müəllimi və etibarlı bir dostu itirdik".*

İlahinin sevərək, bir möcüzə olaraq yaratdığı, qeyri-adiliklərlə dolu seçilmişlər yaranışdan əbədiyyət dünyasına qovuşmağa can atır, bütün şüurlu həyatları boyu bunun üçün bazis yaradırlar. Hüseyn müəllim kimi...

Rahat uyu, əziz ustad! Qoyub getdiyin elm xəzinəsi ən böyük mirasımız, pak mənəviyyatın örnəyimizdir. Kim bilir, arxivinizdə yarımçıq qalan, elmimizə baş ucalığı gətirə biləcək neçə-neçə tədqiqatlarınız bizlərə qiymətli əmanət qaldı. Sizdən sonra da sizdən öyrənəcəklərimizdir təsəllimiz… Ruhaniyyətiniz, əbədiyyətiniz mübarək!..

***P.S. Yazımı tamamlayıb "Şərq qapısı"nın növbəti nömrəsinə yerləşdirmək istəyərkən Hüseyn müəllimlə görüşlərimizdən birində "Qəzetinizin hər nömrəsini pdf sayta qoyularkən oxuyuram. Pis deyil. Xasiyyətimə bələdsiniz. İki dünya bir araya gələ, kimisə boğazdan yuxarı tərifləmərəm" fikrini xatırladım. "Görəsən, bu yazı necə, Hüseyn müəllimi qane edəcəkmi?!" – deyə ani bir gizilti keçdi içimdən... Və tələbkar bir ustad əlinin çiynimdən götürülməsinə də beləcə yanıxdım...***

**✍ Mehriban SULTAN**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Uşaqların mədəni-estetik zövqünün inkişafı diqqət mərkəzindədir

***Naxçıvanda 14 sentyabr 1989-cu il tarixdən fəaliyyətə başlayan Kukla Teatrına Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 2004-cü ildə Məhəmməd Tağı Sidqinin adı verilib. Uşaqların asudə vaxtının səmərəli təşkilində, onların vətənpərvərlik ruhunda tərbiyəsində Kukla Teatrı mühüm rol oynayır.***



*"Tıq-tıq xanım" tamaşasından*



*"Qoğalın sərgüzəşti" tamaşasından*

Teatr ötən əsrin 90-cı illərindən etibarən həm ölkənin müxtəlif bölgələrində, həm də xarici ölkələrdə qastrol səfərlərində olub. Kukla Teatrının Türkiyədə, İran İslam respublikasında qastrol səfərlərində olması və Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində keçirilən "Kuklaların fantaziyası" adlı Beynəlxalq Kukla teatrları festivallarında Naxçıvanı, eləcə də ölkəmizi yüksək səviyyədə təmsil etməsi muxtar respublikanın mədəni əlaqələrinin inkişafına dəyərli töhfə verib.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan humanitar siyasətin əsas tərkib hissəsi kimi uşaqların təhsili, fiziki və mənəvi inkişafı istiqamətində reallaşdırılan tədbirlərlə fiziki-mənəvi baxımdan sağlam nəslin yetişdirilməsinə xidmət edir.

Uşaq və gənclərin istirahətinin səmərəli təşkili, estetik tərbiyəsi müasir dövrdə qarşıya qoyulan mühüm məsələlərdən biridir. Xüsusilə də teatr tamaşalarına baxmaq vərdişlərinin formalaşması, səhnə ilə canlı ünsiyyətdə olmaq uşaqlarda mədəniyyətə, incəsənətə sevgi yaradır. Bu baxımdan Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının uşaqların mənəvi inkişafında rolu böyükdür.

Teatr pandemiya dövründə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin onlayn tədbirlərinə qoşulmuş, Naxçıvan Dövlət Televiziyasının efirində və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında canlı yayımlanan "Buratino", "Qoğalın sərgüzəşti", "Ələddinin sehrli çırağı", "Göyçək Fatma", "Tıq-tıq xanım" tamaşalarını onlayn formada kiçikyaşlı izləyicilərə çatdırmışdır.

Həftənin şənbə günləri iki növbədə kiçikyaşlı teatrsevərlərlə dolu olan Naxçıvan Dövlət Kukla Teatrı pandemiyanın başa çatmasını və kollektivin tamaşaçılarla canlı ünsiyyətdə olacağı görüşləri səbirsizliklə gözləyir.

# Naxçıvan Muxtar Respublikası üzrə 22 iyun 2020-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1028 | 90 | 238 | 26,4 |
| 2. | Şərur rayonu | 4865 | 45 | 128 | 28,4 |
| 3. | Babək rayonu | 11767 | 1770 | 5072 | 28,7 |
| 4. | Ordubad rayonu | 1804 | 907 | 2560 | 28,2 |
| 5. | Culfa rayonu | 7589 | 1100 | 3114 | 28,3 |
| 6. | Kəngərli rayonu | 5906 | 1280 | 3510 | 27,4 |
| 7. | Şahbuz rayonu | 1563 | - | - | - |
| 8. | Sədərək rayonu | 2357 | 190 | 632 | 33,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **36879** | **5382** | **15254** | **28,3** |

# Yaylaq sakinlərinə qayğı göstərilir

*Şahbuz rayonunun Batabat ərazisində yerləşən yaylaqlarda rayon mərkəzi xəstəxanasının və baytarlıq idarəsinin kollektivləri tərəfindən bir sıra xidmətlər göstərilib. Belə ki, rayon mərkəzi xəstəxanasının həkimi Əli Qurbanov yaylaqlarda yaşayan vətəndaşların səhhəti ilə maraqlanıb, onlara müxtəlif zəruri dərman preparatları təqdim edib.*



Rayon baytarlıq idarəsinin müdiri Nəzərəli Ağamalıyev və idarənin kollektivi sahibkarlarla maarifləndirici söhbətlər aparıb, müxtəlif heyvani xəstəliklərin qarşısının alınması və onların idarə olunması, təsərrüfatlarda rast gəlinən xəstəliklər, bu sahədə fermerlərin görə biləcəyi tədbirlər, baytarlıq-sanitariya qaydaları, xəstəliktörədicilərə qarşı aparılan mübarizə yolları barədə ətraflı məlumat verilib. Eyni zamanda zəruri sayılan təhlükəsizlik qaydalarına əməl edilməsi, dezinfeksiya, dezinseksiya işlərinin görülməsi, yemləmə, bəsləmə qaydaları, profilaktik tədbirlərin vaxtlı-vaxtında icrasının zəruriliyi, mövsümlə əlaqədar baş verən xəstəliklər və onlarla mübarizə, təsərrüfatlarda tez-tez rast gəlinən xəstəliklərdən söhbət açılıb.

Tədbir çərçivəsində səyyar satıcılıq da təşkil edilib və yaylaqlarda olanlar tələbat yaranan ərzaqlarla təmin olunublar. 89 yaşlı sahibkar Abdulla İsayev göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirib. Qeyd edək ki, rayon baytarlıq idarəsinin əməkdaşları tərəfindən örüşlərdə dərmanlama işləri də həyata keçirilib.

**T. MƏMMƏDOVA**

# Esse yazı müsabiqəsinin nəticələri açıqlanıb

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 15 may-16 iyun tarixləri arasında "Milli dəyərlərimiz düşüncəmizdə" adlı esse müsabiqəsi keçirilib. Onlayn müsabiqəyə, ümumilikdə, 42 iştirakçı tərəfindən 43 esse təqdim olunub.*

Nazirlik tərəfindən müəyyən edilmiş münsiflər heyəti müsabiqəyə təqdim olunmuş esselərə baxış keçirib. Seçim zamanı mövzunun təsvir və ya tərənnüm gücü, eyni zamanda bəhs olunan mövzunun reallığı, essedəki mətnin mövzuya uyğun dolğunluğu, müəllif fikrinin anlaşılan formada, birmənalı şəkildə çatdırılması, essedə göstərilən faktın doğruluğu, heç bir yerdə dərc olunmaması, Azərbaycan ədəbi dilinin orfoqrafik, qrammatik və punktoqrafik (durğu işarələri) qaydaları əsasında yazılması nəzərə alınıb. Qeyd edək ki, esse müsabiqəsində I yer üzrə qalib seçilməyib.

Müsabiqənin nəticələrinə əsasən Naxçıvan Musiqi Kollecinin müəllimi Elnurə Əsgərova II, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin müəllimi Fatma Babayeva III yerin qalibi olublar. Müsabiqədə "Şərq qapısı" qəzetinin əməkdaşları – Güntac Şahməmmədli və Türkan Hüseynli fərqlənərək fəxri fərmana layiq görülüblər. Diplom, mükafat və fəxri fərmanlar qalib gələn və fərqlənən iştirakçıların evlərinə çatdırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Dövlət qulluqçusunun xidməti fəaliyyəti hansı meyarlar əsasında qiymətləndirilir?*

**Cavab:** – "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati vəzifə tutan dövlət qulluqçusunun xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi onun il ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və işçinin gələcək inkişafını müəyyən etməkdən ibarətdir. Dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçirilir.

Dövlət qulluqçusunun xidməti fəaliyyəti peşə bilikləri, xidməti vəzifələrə münasibət, təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı, yaradıcılıq və təşəbbüskarlıq, əmək intizamı, iş təcrübəsi və onu bölüşmə, kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər əsasında qiymətləndirilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# Böyükdən-kiçiyə hər kəsin sevimlisi – dondurma

***Hələ uzaq keçmişdən insan övladı bəzən təsadüf, bəzən də araşdırmalar nəticəsində müxtəlif təamlar kəşf edib. Zaman-zaman onlar təkmilləşdirilərək çeşidlənib, bəşəriyyətin sevimli qidalarına çevrilib. Belə dadlı desertlərdən biri də dondurmadır.***



Artıq yay fəslini yaşadığımız, günəşin qızmar şüalarının ətrafa "od ələdiyi" günlərdə sərinləmək üçün yeyilən dondurma uşaqdan-böyüyə hər kəsin sevimli qidasıdır. Naxçıvan şəhərində fəaliyyət göstərən dondurma istehsalı ilə məşğul olan "Nur Qida" Məhdud Məsuliyyətli Cəmiyyəti həmin qidaya olan tələbatın ödənilməsinə töhfəsini verir. İstehsal müəssisəsinin ləziz dondurmaları artıq 17 ildir ki, süfrələrimizin bəzəyinə çevrilib, həm keyfiyyəti, həm də sərfəli qiyməti ilə seçilir.

2003-cü ildən fəaliyyət göstərən müəssisədə yaradılan şərait və istehsal prosesi ilə yaxından tanış olmaq üçün ötən günlərdə adıçəkilən ünvanda olduq. Dondurma mövsümü müəssisədə iş prosesini də sürətləndirib. İşçilər gündən-günə artan tələbatı ödəmək üçün səylə çalışırlar. Müəssisədə xammal və hazır süd məhsullarının istehsalı üçün müasir standartlara uyğun texnoloji avadanlıqların quraşdırılması rəqabətqabiliyyətli məhsul istehsalına imkan verir.

Müəssisənin rəhbəri Razim Rzayev bildirdi ki, muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində mühüm addımların atılması təqdirəlayiq haldır. Yaradılan əlverişli biznes mühiti onun da müəssisə quraraq sahibkarlıq fəaliyyətinə başlamasına stimul olub. Razim müəllim onu da qeyd etdi ki, dondurma istehsalında ekoloji cəhətdən təmiz, keyfiyyətli yerli xammallardan istifadə olunur. Demək olar ki, əlavə kimyəvi maddələr vurulmadan hazırlanan bu dondurmalara dadına və keyfiyyətinə görə tələbat yüksəkdir. Müəssisədə istehsal avtomatik şəkildə, mərhələlərlə həyata keçirilir. Qəbul edilən təbii süd əvvəlcə nasos vasitəsilə qazanlara vurulur, sonra 82 dərəcə temperaturda bişirilir. Sonrakı mərhələdə soyuq su vasitəsilə temperatur 60 dərəcəyə endirilir. Xüsusi avadanlıqla parçalanan süd saxlama qazanlarına ötürülür, mənfi temperaturda 12 saatdan az olmayaraq saxlanılır. Müəssisədə, ümumilikdə, 7 çeşiddə dondurma istehsal olunur. Müxtəlif çəkili taralarda bazara çıxarılan məhsul geniş alıcı kütləsi qazanıb, onun ayrı-ayrı ünvanlara vaxtında çatdırılması işi də diqqətdə saxlanılır. Belə ki, tələbata uyğun istehsal edilən məhsullar gün ərzində marketlərə, iaşə obyektlərinə paylanılır. Daşınmalar zamanı soyuducu kameralarla təmin olunmuş nəqliyyat vasitələrindən istifadə edilir, mütəmadi olaraq istehlakçıların tələbləri və fikirləri öyrənilir.

Müəssisədən ayrıldıqdan sonra günün, demək olar ki, ən çox istifadə olunan qidasına çevrilmiş bu təamın faydaları haqqında məlumat almaq üçün Naxçıvan Muxtar Respublika Xəstəxanası Təcili və təxirəsalınmaz yardım şöbəsinin müdiri Pəri Əliyeva ilə həmsöhbət olduq. Həkim bildirdi ki, tərkibi zülal və karbohidratlarla zəngin olan dondurmanın tərkibində A, B, C, D və E vitaminləri, həmçinin kalsium, kalium, fosfor, maqnezium, dəmir və sink kimi minerallar var. Xüsusilə süd içməyən, yoğurt və pendir xoşlamayan uşaqlar üçün əla bir qidadır. Dondurmanın xam maddəsi süd olduğundan, bəzi hallarda uşağın protein və kalsium ehtiyaclarının qismən ödənilməsi üçün də yararlıdır. Bundan əlavə, iştahasız, orqanizmi zəif, eyni zamanda aktiv fiziki hərəkətdə olan uşaqlar üçün xoş və sağlam bir qidadır. Onun tərkibindəki protein və fosfor uşaqların, sümüklərinin və əzələlərinin inkişafı üçün faydalıdır.

Həkim dondurmanı çox sevən uşaqların bu qidanı necə qəbul etməsini də vurğulayaraq dedi ki, uşağa, gündə 3 dəfə 1 çay qaşığı, dondurma verməklə onun orqanizmini bu soyuq qidaya alışdıra bilərik. Uşaq dondurmanı ağzında bir qədər saxlamalıdır ki, badamcıqlara təsir etsin. Daha sonra dondurmanın miqdarını artırmaq olar. Müsahibim onu da diqqətimizə çatdırdı ki, dondurma alındıqdan dərhal sonra istifadə olunmasa, soyuducuda saxlanılmalıdır. Yumşaq, açıq qablarda satışda olanlar isə tez bir zamanda yeyilməlidir. Dondurma yenidən dondurulmamalı, qablaşdırılmış məhsullarda deformasiyaların olmamasına da diqqət yetirilməlidir.

Biz də oxucularımıza bu ləzzətli təamdan yayboyu dadmaq üçün keyfiyyətli qidaya və sağlam qidalanmağa üstünlük verməyi tövsiyə edirik.

**Telli MƏMMƏDOVA**


### *İtmişdir*

Şərur rayon Mahmudkəndində yaşamış Məmmədov Məmməd Möhsün oğlunun adına olan JN-801 inventar nömrəli, 10204028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Mahmudkənd sakini Məmmədov Əbülfəz Məmməd oğlunun adına olan JN-800 inventar nömrəli, 10204028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Tağıyev Rəşad Zəfər oğlunun adına olan 0900184382 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 459